# "AZERBAYCAN KADIN DİVAN ŞAİRLERİ" KİTABI ANKARADA

ərəb və fars gələnəklərində qadınlardan bəhs edən əsərlər, həm də müxtəlif təzkirələr qeyd olunub. Kitabın ikinci bölümündə 12-13-cü yüzilliklərdən günümüzə qədər klassik tərzdə, yəni əruzda şeirlər yazan Azərbaycan qadın şairlərimizin yaradıcılığı əks olunub. Sonuncu bölmədə isə 19-20-ci yüzilliklərdə Azərbaycan ədəbiyyatının biblioqrafik qaynaqlarında adı keçən Azərbaycan qadın şairləri haqqında mülahizə və məlumatlarda diqqəti çəkir. Doğrusu, bəzi şairlərimizin bəlkə də heç Azərbaycanda da əruzla şeir yazdığı bir o qədər də bilinmir və Pərvanə xanım onları axtarıb taparaq tədqiqatına daxil edib.

Pərvanə xanım "Ön söz"də Şərqin biblioqrafik ənənələrində qadın şairlərdən bəhs edən təskirələrin də yazıya alındığını xatırladır və göstərir ki, bunlardan ilk məlum olanı 16-cı yüzillikdə yazıya alınan təzkirədir. Alim onu da qeyd edir ki, sonrakı yüzilliklərdə, xüsusilə 19-cu yüz illikdə təzkirələrin sayı artmışdır.

Pərvanə Bayram kitabın sonuncu bölümündə xüsusilə göstərir ki, təkcə 21-ci yüzilliyin ilk 23 ilində Azərbaycanda müasir qadın şairlərinin 4 divanı nəşr olunub. Bunlardan ikisi Gülnarə Munisin, biri Lilpar Cəmşidqızının, biri də Mahirə Mahinindir. Alim onu da deyir ki, Azərbaycanın qadın şairləri haqqında ilk sistemli araşdırma Əzizə Cəfərzadə tərəfindən aparılmışdır. Müəllif göstərir ki, onun "Azərbaycanın aşıq və şair qadınlar" kitabı dəfə 1974, 1991-ci illərdə kiril qrafikası ilə, 2003-cü ildə isə 20-ci yüzilli əhatə edən "Azərbaycanın şair və aşıq qadınları" kitabı çap edilmişdir. Bu iki kitab əsasında tərtib




yaradıcılığı araşdırılır, onların özünəməxsusluğu, klassik poetik ənənələrə bağlılıqları izlənilir. Pərvanə Bayram hər bir qadın şair haqqında yaddaqalan, həm də maraqlı mülahizələr söyləyir, onların Azərbaycan poeziyasındakı xidmətlərini dəyərləndirir. Məsələn, alim Nigar Rəfibəylini incə duyğuları qələmə alan, eləcə də, eşq, vətən, təbiət gözəllikləri ilə analıq hisslərini həmişə ön planda işləyən şair kimi təqdim edir. O, mülahizəsinə davam edərək göstərir ki, təbiətlə iç-içə olan şairin şeirləri bir çiçəklər keçidi kimidir.

Pərvanə xanım müasir qadın şairlərin yaradıcılığına ətraflı diqqət yetirir. Onların yaradıcılığına xeyli yer ayırıb. Müəllif yazır ki, Gülnarə Munisin divani iri həcmlidir, yəni 409 səhifəlik bu divanı 2007-ci ildə işıq üzü görüb. P. Bayram bu divanı 19-cu yüzillikdəki Heyran xanım Dünbülünün divanından sonra II divan kimi dəyərləndirir, eyni zamanləm Ədəbi Birliyi yaradıcılığını da xatırladır, göstərir ki, bu birlik ondan çox kitabın işıq üzü görməsinə imkan yaratmışdır.

Bəs bu klassik tərzdə yazılan divanların əhəmiyyəti nədir? Təbii ki, müasir dövrdə də Azərbaycan poeziyasının zənginliyinin mahiyyətini göstərir, həm də klassik poetik ənənələrin müasir poeziyasında davam etdirildiyini əks etdirir. Yəni müasir Azərbaycan poeziyasında heca və sərbəst vəznlərdə deyil, əruz vəznində də şeirlər yazılır, bu ənənə unudulmayıb. Maraqlıdır ki, Pərvanə xanım bu qeyd etdiyim məsələ haqqında maraqlı bir qənaətdədir. O deyir ki, klassik musiqimiz olan muğam əsərləri günümüzdə də ifa edilməkdədir. Daha doğrusu, qəzəl və muğam arasında ayrılmaz bir bağlılıq mövcuddur. Bu mövcudluğu inkar etmək mümkün deyil. Eyni zamanda qəzəl hava ilə oxunmalıdır - bunu da xatırlamaq gərəklidir. Yəni klassik tərzdə şeirlərin yaranması, bu ənənələrin davam etməsi dolayı olsa da muğamlarımızın inkişaf etməsinə həmişə imkan yaradıb, yaradacaq da. Pərvanə Bayramın "Azerbaycan Kadın Divan Şairleri" kitabı Azərbaycan ədəbiyyatı tarixində mühüm hadisədir və onun Azərbaycan dilində dərc edilməsi də vacibdir. Bir mənada tədqiqat Əzizə Cəfərzadə tərəfindən əsası qoyulan bir araşdırmanın - Azərbaycan qadın şairlərinin tədqiqinin davamıdır. Bu, göstərir ki, bu axtarışlar gələcəkdə də davam etdiriləcəkdir. Bu istiqamət özünün yeni tədqiqatçılarını da bəlli edəcəkdir.

***Tacir SƏMİMİ,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***